# 21
# Sizin növbənizdir

*Filosofun sirri*

Mənim atam göz həkimi və missioner idi. O, öz həyatını Pakistan, Əfqanıstan və Somalidə korluqla mübarizəyə həsr etmişdi. Eyni vaxtda o, insanlara xaçpərəstlik nuru gətirməyə cəhd göstərirdi. Bəlkə də onun mənim TED-in səhnəsinə dəvət etdiyim ilk natiqlərdən birini görməməsi yerinə düşmüşdü. Bu natiq qatı ateist, filosof Den Dennett idi. Onlar bir nöqteyi-nəzərdən başqa heç nədə ümumi dil tapa bilməzdilər. Memlərin gücünə həsr etdiyi möhtəşəm çıxışında Dennett aşağıdakıları söylədi: "Xoşbəxtliyin sirri sadədir: özünüzdən daha vacib olanı tapmaq və həyatınızı ona həsr etmək lazımdır".

Bu müddəa ilə mənim atam sözsüz ki, razılaşardı.

Dennett ideyaların gücünə möhkəm inanırdı. O, insanın nadir xüsusiyyətini qeyd edirdi: bəzən biz bizə vacib olan ideyalar naminə, şəxsi bioloji tələbatlarımıza məhəl qoymamağa hazırıq. Dennettin mülahizəsinə görə, bu nöqteyi-nəzəri mən də bölüşürəm, yəqin ki,

atam da bölüşərdi, məhz bu xüsusiyyət dərrakəli, zövq gətirən həyatın vacib açarıdır.

İnsan qəribə məxluqdur. Bir tərəfdən biz, sadəcə, yemək, içmək, oynamaq və maddi dəyərlər əldə etmək istəyirik. Lakin gedonist həyat tərzi zövq gətirmir. Həyatın mənasını başa düşmək üçün bizə daha da artıq nələrsə lazımdır. Biz özümüzdən daha böyük olan ideyaları həyata keçirməyə çalışmalıyıq.

Hələlik bunun nə ideya olduğunu mən bilmirəm. Ola bilsin ki, siz də hələlik bunu bilmirsiz.

Ola bilsin ki, siz öz şəhərinizdə hansısa birlik yaratmaq istəyirsiz, yaxud tarixi tədqiqat aparmaqla, uzaq qohumlarınızdan birinin cəsurluğunu hamıya tanıtmaq istəyirsiniz. Ola bilsin ki, siz öz rayonunuzda iməclik təşkil etmək istəyirsiz, yaxud insani tələbatların sizinkindən yüz dəfə artıq olan yerə yollanmaq fikrindəsiniz. Bəlkə də siz istəyirsiz ki, sadəcə, yolunuzda rastlaşanların təcrübə və müdrikliyinə sığınasınız.

Nəyə can atmağınızdan asılı olmayaraq, əgər sizin cəhdiniz həqiqidirsə, mən sizə əvvəldən iki şey deyə bilərəm:

*Bəli, siz xoşbəxtliyin düşünülmüş formasını tapacaqsınız.

*Siz nə isə elə bir şey kəşf edərsiniz ki, bu kitabda olan bütün məsləhətləri üstələyər:

sizin kəşfinizdən danışmağa dəyər.

Sonra nə? Anlaşılan sonra siz öz ehtirasınızı, vərdişlərinizi və inadınızdan istifadə edərək bunları bölüşməlisiz. İnsanlarla, yalnız özünüz yaxşı bildiklərinizlə bölüşün. Dünyanın hər ucuna işıq saçan yeni müdriklik məşəlini yandırın.

Konfransların birində Tom Çatfild çıxış edirdi. Mənim həmkarım Bruno Cussani soruşdu ki, başqa natiqlərə mən nə məsləhət verə bilərəm? Və görün o, necə cavab verdi:

*“Çıxışda mənim üçün ən təəccüblü olan onun potensial təsiridir. Sizin qısa söhbətinizi yüz minlərlə adama eşitdirməklə yanaşı, minlərlə söhbətə də səbəb ola bilər. Ona görə də verə biləcəyim əsas məsləhət: var qüvvənizlə çalışın ki, cəsarətli və şəffaf olasınız, rahatlıq mühitindən çıxmaqdan qorxmayın, dəqiq bildiyiniz və başqalarının dedikləri ilə kifayətlənməyin. Dünyaya min söhbətə səbəb olan sual verin. İnsanları həvəsləndirin. Məncə, düz olub, təhlükəsiz yolla getmək o dərəcədə vacib deyil, nəinki yeni ideyalar doğura bilən nadir nə isə yaratmaq”.*

Bu sözlər mənim xoşuma gəlir. Mən istəyirəm ki, gələcəkdə insanlar dünyanı tərpətməyə qadir olduqlarını başa düşsünlər. İnsanlara qiymətli ideyalar təklif etmək vacibdir. Mən əminəm ki, məhz yeni ideyalar bu dünyaya real təsir etmək üçün insanlara imkan verir. Ona görə ki, kommunikasiyalar dünyasında düzgün irəli sürülən ideya müstəqil yayıla bilir. O, indi və gələcəkdə də saysız miqdarda insana təsir edə bilər.

Lakin dünyanı düzgün istiqamətə yönəltməyənlər haqda nə demək olar? Məgər kütləvi çıxışlar xeyirdən başqa zərər də verə bilər?

Verə bilər. Və buna misal olaraq çoxsaylı demaqoqları və insan qəlbini parçalayan utanmaz adamları göstərmək olar.

Lakin mən düşünmürəm ki, ideal simmetriya möv-

cuddur. Mənim təxmin etməyə bütün əsaslarım var ki, kütləvi çıxışlar özündə daha çox müsbət enerji daşıyır. İcazə verin öz fikrimi izah edim.

Bildiyimiz kimi, çıxışın təsirli olması üçün natiq dinləyicilərin yanına gəlib deməlidir: ”Gəldik, birlikdə nə isə edək”. Natiq göstərməyə borcludur ki, nəyə görə onun ideyası sizin sərf etdiyiniz qüvvəyə layiqdir. O, dinləyicilərin qəlbinə toxunmağa, ümumi dəyər, istək, ümid və arzulara müraciət etməyə borcludur.

Bəzi hallarda bu proses tamamilə pozula bilər. Xalqı oyandırmaq olar. Nifrəti alovlandırmaq olar. Dünyaya tamamilə yanlış olan baxışları doğru kimi göstərmək olar. Lakin tarixdə bunlar o zaman baş verir ki, dinləyicilərin müəyyən bir səviyyədə dünyadan əlaqəsi kəsilmiş olsun. O, bizi onlarla üz-üzə qoyaraq “qəbilə” xarakteri daşıyır. Və bu kimi natiqlər həyati vacib dəlilləri dinləyicilərdən gizlədirlər.

Lakin biz bir olduqda insanlar dünyanı və bir-birilərini tanıdıqda tamamilə başqa şey baş verir. Onda geniş paylaşılan dəyər və arzulara müraciət edən natiqlər insanlara da çox təsir edə bilirlər.

Dünyaya təsir etmək istəyən iki dini lider təsəvvür edin. Biri öz dininin digər dinlərdən üstün olduğunu söyləyərək, kütləvi itaətsizlik oyadır. Digəri isə onun dininin əsas dəyəri, digər dinlərin də qəbul etdiyi, rəhm, mərhəmət olduğunu göstərir. O, çıxışını bu tezis üzərində qurur və elə tərzdə danışmağa çalışır ki, digər dini etiqad sahibləri onun bu çıxışına biganə qalmasınlar. Bu liderlərdən hansının şansı daha artıqdır? İnsanların böyük əksəriyyəti kimə qulaq asacaq? Kimin sözləri daha güclü təsir edəcək?

İndi isə iki siyasi lider təsəvvür edin. Onlardan biri yalnız öz xalqının mənafeyini qoruyur, digəri isə bütün bəşəriyyətin. Onlardan hansı birisi daha çox dəstək qazanar? Əgər insanlar qatı ksenofobiyaçılar, yaxud dardüşüncəli rasist olsaydılar, onda ikinci siyasətçinin uğur qazanmağa heç bir şansı olmazdı. Lakin mən buna inanmıram. Mən əminəm ki, daha yüksək nələrsə bizləri birləşdirir, nəinki ayırır. Biz hamımız aclığı və ağrını hiss edirik, biz hamımız gülürük, ağlayırıq və hamımız sevməyə qadirik. Hər birimizin damarından qan axır. Biz hamımız xəyal edirik. Biz hamımız rəhmdarıq və özümüzü başqasının yerinə qoymağı bacarırıq. Və əsl vizionerlər onlardır ki, özlərində cəsarət tapıb ayağa qalxır və söyləməyi bacarırlar, bu insan cəmiyyətinə müraciət edərək onu inkişaf etdirirlər.

Mən artıq sağlam düşüncə haqda danışmışdım. Sağlam düşüncə təbiət etibarı ilə özündə dünyaya şəxsi nöqteyi-nəzərdən deyil, bəşəri nöqteyi-nəzərdən baxmağa üstünlük verir. Sağlam düşüncə bu tipli dəlilləri inkar edir: "Mən bunu istəyirəm, çünki o, mənim maraq dairəmdədir." O tamamilə başqa tərzdə apelyasiya edir: "Bax buna görə bizim hamımız buna can atmalıyıq. Əks halda, bu kimi dəlillər əhəmiyyətini itirərək insanları birləşməyə məcbur edə bilməyəcək. Biz hamını sağlam düşüncə ilə hərəkət etməyə dəvət etdikdə məhz bunu nəzərdə tuturuq. Biz deyirik: "Zəhmət olmasa, problemə qlobal perspektivdə baxın!"

Sağlam düşüncənin gücü, kommunikasiyaların inkişafı ilə birlikdə balans gücünü öz "qəbilə" üzvlərinin deyil, bizim hər birimizin yerində olmaq istəyən

natiqlərin xeyrinə həll etmək istəyir. Başqa nöqte-yi-nəzərə sahib olanlar bəzən üstünlük qazansalar da, bu, müvəqqəti xarakter daşıyır. Sonunda bəşəri dəyərləri müdafiə edənlər qalib gələcəklər.

Buna görə də mən qətiyyətlə Martin Lyuter Kinqin parlaq müddəasına inanıram: "Kainatın əxlaqi qövsü uzundur, lakin o, həmişə ədalətə doğru sallanar". Tarixi inkişaf mərhələsi belədir. Dünyada əxlaqi tərəqqi anlayışı mövcuddur. Bir anlığa geri çəkilib, xəbərdəki şərhdən uzaq dursaq, son əsrlərdəki əxlaqi inkişafın necə yüksək səviyyəyə çatdığının şahidi olarıq. Və burada Martin Lyuter Kinqin təsiri az olmayıb. Və bu inkişaf davam edəcəkdir.

İnsanlar yaxınlaşırlar. Bunun səbəbkarı təkcə texniki tərəqqi deyil, həmçinin insanların bir-birilərini dərindən başa düşmələridir. Biz hər kəsdə bizə vacib olanları görmək üçün yeni vasitələr tapa biləcəyik. Onda maneələr dağıdılacaq və insan qəlbləri birləşəcəkdir.

Bu tez və sadə proses deyil. Bu dəyişikliklərin həyata keçməsi üçün bir neçə nəsil dəyişilməlidir. Bu yolda ən müxtəlif faciələr baş verə bilər. Lakin bizim ən azı bir məqsədimiz var.

Biri ilə ünsiyyət qurmaq bu məqsədə gedən yolda ən vacib addımdır. Təbiət bizi elə yaradıb ki, bir-birimizin zəifliyinə, səmimiyyətinə, ruhlanmasına cavab veririk. Bu şərtlə ki, onları hiss etməyə, duymağa imkanımız olsun. Və bu gün bizim belə bir imkanımız var.

Ən nəhayətdə, bu çox asandır. Biz indi əvvəllər heç zaman olmadığı kimi birləşmişik. Bu da o deməkdir ki, bizim yaxşı ideyalarımızı bir-birimizlə bölüşmək

qabiliyyətimiz inanılmaz əhəmiyyət kəsb etməkdədir. TED-in natiqlərinin çıxışlarından mənim əldə etdiyim əhəmiyyətli dərs aşağıdakıdır: Gələcək hələ müəyyənləşməyib Biz onu özümüz müəyyənləşdiririk. Hamımız birlikdə.

*Sizin əmanətinizi açıq səhifə gözləyir.*

*Və boş səhifə.*